# LƏNKƏRAN DÖVLƏT UNİVERSİTETİ



Respublikası Nazirlər Kabinetinin 25 sentyabr 1991-ci il tarixli, 319 saylı qərarı ilə Bakı Dövlət Universitetinin filialı kimi qoyulmuş, Respublika Nazirlər Kabinetinin 1992-ci il 23 iyul tarixli 403 saylı sərəncamı ilə həmin filialın bazasında müstəqil ali təhsil müəssisəsi yaradılmışdır. Universitetin ilk rektoru tarix elmləri doktoru, professor Hacıbaba Sadiq oğlu Əzimov olmuşdur.

Yarandığı ilk illərdə Lənkəran Dövlət Universitetinin çoxsaylı ehtiyaclarının təmin olunmasında, maddi-texniki bazanın, tədris korpuslarının, digər infrastrukturlarının yaradılmasında ciddi problemlər meydana çıxsa da LDU rəhbərliyinin səyi və təşkilatçılığı, eləcə də Universitetdə toplanmış kadrların fədakar əməyi sayəsində Lənkəran şəhər 2 və 4 saylı tam orta məktəblərinin, Kənd təsərrüfatı texnikumunun və 169 saylı texniki məktəbin dərs otaqları LDU-nun istifadəsi üçün uyğunlaşdırıldı. Bir qədər sonra isə Lənkəran Kondensator zavodunun inzibati binası, şəhərə bitişik Sütəmurdov kəndindəki 1,2 hektarlıq tədris-təcrübə sahəsi, bir çox təsərrüfat tikililəri Lənkəran Dövlət Universitetinin balansına verildi. Görülən bu işlərin nəticəsi olaraq**,** artıq 1992-ci ilin noyabr ayından LDU-da ilk tədris ilinə start verildi.

İlk illərdə LDU-nun auditoriyalarında Beynəlxalq əlaqələr, Şərqşünaslıq, Rus dili və ədəbiyyatı, Tarix və ictimaiyyət, Riyaziyyat və informatika, Kimya və biologiya, İqtisadiyyat və idarəetmə, Kənd təsərrüfatı və aqrar sənaye sahələri və s. ixtisasları üzrə mütəxəssislər hazırlanırdı. Bunun üçün elmi-pedaqoji kadrların, həm də yüksək ixtisaslı, tanınmış alimlərin LDU-ya dəvət olunması əsas məsələ kimi qarşıda dururdu. Çox qısa zamanda xeyli sayda tanınmış alimlərin mühazirələr oxumaqdan ötrü Lənkərana gəlməsi vəziyyəti yaxşılığa doğru dəyişə bildi. İlk gələnlərdən akademik İdeal Nərimanov, professorlar Seyfəddin Qəndilov, Əliyar Səfərli, Seyfulla Əsədullayev, Məmmədəli Hüseynov, Mirzə Rəhimov, Sabir Xəlilov, Qüdrət İsmayılzadə, Qəmərşah Cavadov, Rəfiqə Mustafayeva, Şövqü Göyçaylı, Əlisa Şükürlü, Maqsud Hacıyev, Rəcəb Əliyev, Maqbet Məmmədov, Rafiq Babayev, Nadir Mikayılov dosentlər Nəriman Səbziyev, Qəzənfər Rəcəbli, Məmmədağa Məmmədov, Vaqif İsmayılov, İslam Vəliyev və başqalarının yer alması LDU-nun irəliyə doğru addımlarını daha mətin atmağa imkan yaratdı.

Lakin bununla da çətinliklər bitmədi. Problemlərdən biri də dəvət olunan xeyli sayda qonaq alimlərin sosial məsələlərini, mənzil-məişət şəraitini yaxşılaşdırmaq, onların nəqliyyat problemlərini həll etmək idi. Universitet rəhbərliyinin, eləcə də yerli müəllimlərin fədakar səyləri nəticəsində problemlər tədricən həllini tapdı, şəhərə bitişik Sütəmurdov kəndinin ərazisində, dəniz sahilində və meşə massivində yerləşən binanın – Lənkəran Şəhər Partiya Komitəsinə məxsus Qonaq evinin Universitetə verilməsi Bakıdan dəvət olunan professor-müəllimlərin müvəqqəti yerləşməsi problemini aradan qaldırdı.

Qarşıda duran çox vacib vəzifələrdən biri də Universitet kitabxanasının yaradılması idi. Bu məqsədlə yer ayrılmalı, oxu zalları, abonoment otaqları təşkil edilməli, nəzərdə tutulan fonda dərslik, dərs vəsaitləri və digər yardımçı ədəbiyyat, eləcə də gündəlik dövrü mətbuatın daxil olmasını təmin etmək və s. lazım idi. İlk növbədə LDU ilə sıx əməkdaşlıq edən alim-professorlara müraciət olundu. Qısa müddətdə onların yardımı ilə Universitet kitabxanası zəruri ədəbiyyatla təmin olundu. 1995-ci ildə şəhərin mərkəzində yerləşən və

o vaxtlar “Ziyalılar evi” adı ilə məşhur olan bina Universitetin balansına verildi. Bundan sonra LDU kitabxanası şəhərin ən görkəmli binasına köçürüldü və inkişaf etməyə başladı.

1992/1993-cü tədris ilində LDU-da “Təbiyyat” və “Humanitar” adı ilə 2 fakültə, 3 kafedra fəaliyyət göstərirdi. “Təbiyyat” fakültəsində b.e.n., dos. Elmira Abdullayeva, “Humanitar” fakültədə isə t.e.n., dos. Qəzənfər Rəcəbli dekan vəzifələrini həyata keçirirdilər.

1992/1997-ci illərdə Lənkəran Dövlət Universitetində 17 ixtisas üzrə ali təhsilli kadrlar hazırlanırdı. Həmin dövrdə LDU-da ölkəmizin 50 rayonundan 1320 tələbə, o cümlədən 22 nəfər Türkiyə vətəndaşı təhsil alır, Azərbaycan tarixi, Azərbaycan dili və ədəbiyatı, Riyaziyyat müəllimliyi, Coğrafiya müəllimliyi, Biologiya müəllimliyi, Meyvə-tərəvəzçilik və üzümçülük, Meşə və bağ-park təsərrüfatı, Balıq məhsullarının texnologiyası ixtisasları üzrə mütəxəssislər hazırlanırdı. 1993-1994-cü tədris ilindən LDU-da Beynəlxalq əlaqələr, Rus dili və ədəbiyyatı, 1994-1995-ci tədris ilindən Şərqşünaslıq, Mühasibat uçotu, nəzarət və təsərrüfat fəaliyyətinin təhlili, 1994-1995-ci tədris ilində Pedaqogika və ibtidai təhsilin metodikası, 1995-1996-cı tədris ilində İbtidai hərbi və gənclərin çağırışaqədərki hazırlığı, 1997-1998-ci tədris ilində isə Musiqi təhsili və təsviri incəsənət üzrə yeni ixtisasların açılması Lənkəran Dövlət Universitetinin inkişaf yoluna düşdüyünü, uğurlara doğru addım-addım irəlilədiyini göstərirdi.

Artıq 1997-ci ildə LDU-da 142 nəfər elmi-pedaqoji heyət çalışırdı. Onlardan 27 nəfəri professor-elmlər doktoru, 60 nəfəri elmlər namizədi-dosent idi. Həmin illərdə yuxarıda adlarını qeyd etdiyimiz alimlərlə yanaşı professorlardan Həvil Həvilov, Məhəd Sofiyev, Ruhulla Orucov, Əmirxan Xəlilov, Xalid Əlimirzəyev, Maqbet Məmmədov, Nəcəf Nazim Quliyev, Ağayar Şükürov, Tərlan Novruzov, Əjdər Ağayev, Ramiz Zöhrabov elmlər namizədi, dosentlərdən İslam Vəliyev, Firuz Sadıqlı, Elmira Həsənova, Elmira Abdullayeva, Heydər Orucov, Məryəm Şəfiyeva, Sevda Kazımova, Məmmədxan Soltanov, Cavanşir Quliyev kimi tanınmış alimlər ölkəmizin müxtəlif ali təhsil müəssisələrindən Lənkəran Dövlət Universitetinə gələrək mühazirələr oxuyur, Universitetin mədəni-kütləvi tədbirlərində yaxından iştirak etməklə fədakarlıq nümayiş etdirir, cənub bölgəsində fəaliyyət göstərən ilk ali təhsil ocağının möhkəmlənməsində, uğurlarının sayının artmasında müstəsna xidmətlər göstərirdilər.

Beləliklə, tədris prosesinin düzgün təşkili sahəsində tədbirlərin ardıcıl həyata keçirilməsi, yüksək ixtisaslı alimlərin LDU-da elmi-pedaqoji fəaliyyətə cəlb olunması, təhsil mühitində şəffaflığın, obyektivliyin təmin olunması çox tez bir zamanda LDU-ya nüfuz qazandırdı. LDU Elmi şurasının 1993-cü il 19 fevral tarixli qərarı ilə Universitetdə 14 sahə, 5 əsas istiqamətlər üzrə elmi-tədqiqat işlərinin aparılması planlaşdırıldı və həyata keçirilməyə başlandı. Yerli elmi-pedaqoji kadrların dissertasiyalar üzərində işləməsi, onlara tanınmış alimlərin rəhbər təyin olunması uğurlara yol açdı. Elmi sahəyə marağı təmin etmək məqsədilə LDU Elmi Şurasının 28 oktyabr 1995-ci il tarixli iclasında Universitetdə Vətən tarixi, Azərbaycan dili və ədəbiyyatı üzrə elmlər namizədi alimlik dərəcəsi verən ixtisaslaşdırılmış şuranın yaradılması haqqında qərar qəbul edildi. Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə 1996-cı ildən LDU-da “Vətən tarixi ” və “Azərbaycan ədəbiyyatı” ixtisasları üzrə elmlər namizədi alimlik dərəcəsi almaq üçün ixtisaslaşdırılmış müdafiə şurası fəaliyyətə başladı.

1994-cü ilin fevral ayında gənclərin elmə marağını artırmaq, elmi dərəcəli elmi-pedaqoji kadrlar hazırlamaq və bu yolla Universitetin elmi dərəcəli mütəxəssislərə olan

artan ehtiyacını yerli və gənc kadrlar hesabına aradan qaldırmaq məqsədilə LDU-da Tələbə Elmi Cəmiyyəti yaradıldı. TEC-in fəaliyyəti ardıcıl olaraq Elmi şurada müzakirə olunurdu. 1997-ci ilin sentyabr ayından LDU-da ikipilləli sistemə keçildi, tədris bakalavr və magistratura səviyyələrində aparılmağa başladı, ilk dəfə olaraq aspiranturaya qəbul keçirildi.

1997-ci ildə artıq Universitetdə mütəmadi olaraq elmi konfrans, seminar və simpoziumlar keçirilməyə başladı. Həmin ilin aprel ayında Lənkəran Dövlət Universitetinin yaradılmasının 5 illiyinə həsr edilmiş professor-müəllim heyətinin elmi-praktik konfransı keçirildi. Konfransda "Dilçilik və Azərbaycan ədəbiyyatı", "Coğrafiya və ekologiya elmləri", "Fizika-riyaziyyat elmləri", "Kimya-biologiya və kənd təsərrüfatı elmləri", "Pedaqogika-psixologiya, hərbi və fiziki təlim" bölmələri üzrə keçirilən iclaslarda maraqlı məruzələr dinlənildi və geniş müzakirələr aparıldı.

1996-cı il oktyabrın 1-dən LDU-da o vaxt üçün çox müasir hesab edilən avadanlıqla təchiz edilmiş Kompüter mərkəzi fəaliyyətə başladı.

1995-ci ilin fevral ayında Lənkəran Dövlət Universitetində Azərbaycan Milli Elmlər Akademiyasının 50 illik yubileyi keçirildi. Həmin ilin mart ayında AMEA-nın Rəyasət heyəti, AMEA Nəsimi adına Dilçilik İnstitutu və Lənkəran Dövlət Universiteti ilə birgə "Ana dili və təhsil" mövzusunda keçirilən elmi-praktik konfransda AMEA-nın Prezidenti, akademik Eldar Salayev, akademik Asəf Namazov, akademik Bəkir Nəbiyev, Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik Ağamusa Axundov və ölkəmizin digər elm mərkəzlərindən gələn alimlər iştirak edirdi.

Lənkəran Dövlət Universiteti fəaliyyətinin ilk illərində təkcə ölkənin ali təhsil müəssisələri, elm mərkəzləri ilə deyil, beynəlxalq sahədə də elmi əməkdaşlıq məsələlərinə ciddi diqqət yetirirdi.

Artıq 1997-ci ildə LDU-nun bir neçə yerli elmi-pedaqoji kadrları elmi dissertasiyalar müdafiə etdilər. Bütün bunlar və digər uğurlar LDU-nun sağlam təməllər üzərində fəaliyyət göstərdiyini və davamlı uğurlar qazanacağına əminlik yaradırdı.



1997-ci il iyul ayının 23-də Azərbaycan Respublikasının Prezidenti Ümummilli lider Heydər Əliyevin sərəncamı ilə təcrübəli elm və təhsil təşkilatçısı, uzun illər Azərbaycan Politexnik İnstitutunun (indiki Azərbaycan Texniki Universitetinin) rektoru vəzifəsində işləmiş texnika elmlər doktoru, professor Mirzəağa Əyyub oğlu Bağırov Lənkəran Dövlət Universitetinin rektoru təyin edildi.

Prof. Mirzəağa Bağırov LDU-nə rektor təyin edilərkən Respublika Prezidenti cənab Heydər Əliyev ilə görüşündə ona verilən tövsiyəni hər zaman böyük fərəhlə qeyd edirdi: "Çalışmaq lazımdır ki, Lənkəran Dövlət Universiteti elm və təhsil ocağı olmaqla yanaşı həm də bölgənin mədəniyyət mərkəzinə çevrilsin". 1997/2005-ci illər ərzində LDU-nun inkişaf tempini Universitetin həmin illərdə tələbə qəbulu planının artması, əvvəlki illərdən fərqli olaraq, LDU-ya yeni ixtisasların verilməsi də sübut edirdi. Bu illərdə LDU-da artıq 4 fakültə Humanitar elmlər, Təbiyyat, Pedaqoji və İqtisadiyyat fakültələri, 12 kafedra fəaliyyət göstərdi. Təhsil iki pillədə aparılır, bakalavriat səviyyəsində 14 ixtisas üzrə mütəxəssislər hazırlanırdı. 1997/2003-cü illər ərzində Universiteti 1755 nəfər tələbə bitirmişdi ki, bunun da 390 nəfəri 2003-cü ilin məzunları idi. Həmin məzunlardan 48

nəfəri LDU-nu fərqlənmə diplomu ilə bitirmişdi. LDU-nun 1997/2005-ci illər dövrünü səciyyələndirən daha bir mühüm cəhət əməkdaşların, xüsusilə də elmi dərəcəsi olan elmi-pedaqoji kadrların sayının əhəmiyyətli dərəcədə artması, həmçinin yerli kadrların dissertasiya işi müdafiə edərək Universitetdə elmlər namizədi kimi fəaliyyət göstərmələri idi. Belə ki, əgər əvvəlki illərdə digər ali təhsil müəssisələrindən və elm mərkəzlərindən Lənkəran Dövlət Universitetinə gələn alim kadrların sayı kollektivin 70 faizini təşkil edirdisə, artıq 2002/2003-cü tədris ilində bu rəqəm 30 faiz təşkil edirdi.

1998-ci ildə LDU-da aspiranturaya (doktorantura) qəbul müvəffəqiyyətlə aparıldı. LDU-da AAK tərəfindən təsdiq olunan ixtisaslaşmış şurada namizədlik dissertasiyaları müdafiə edənlərin sayı çoxalmış, Universitetdə elmi-tədqiqat işləri geniş vüsət almışdı. Həmin dövrdə magistrlərin təhsili ilə 3 akademik, 19 professor məşğul olurdu. LDU-nun beynəlxalq elmi əlaqələri xeyli genişlənmişdi. LDU ilə birgə keçirilən respublika və beynəlxalq elmi konfranslarda Universitet alimləri maraqlı elmi məruzələrlə çıxışlar edir, nüfuzlu jurnallarda məqalələr çap olunurdu.

1997/2005-ci illərdə LDU-da keçirilən respublika və beynəlxalq elmi konfranslar davamlı xarakter almışdı. Bu dövrdə LDU-nun qonaqları sırasında ABŞ və Fransanın səlahiyyətli səfirlərini, ABŞ-ın, İran İslam Respublikasının, Almaniya Federativ Respublikasının təhsil işçiləri ilə qarşılıqlı görüşləri, elmi əlaqələri göstərmək olardı. AMEA-nın bir çox institutları ilə yanaşı, Bakı Dövlət Universiteti, Azərbaycan Dillər Universiteti, eləcə də Fransa, İngiltərə, ABŞ ali təhsil, elm mərkəzləri ilə qarşılıqlı elmi əlaqələr yaradılmağa başladı və bu tədbirlər geniş vüsət aldı. Həmin illərdə Lənkəran Dövlət Universitetində Bakı Dövlət Universitetinin 80 illik yubileyinə həsr olunan konfrans böyük uğurla keçdi, konfransda Bakı Dövlət Universitetini və respublikanın digər ali təhsil müəssisələrini təmsil edən görkəmli elm xadimlərinin elmi məruzələri dinlənildi.

2002-ci ilin may ayında rektor, prof. Mirzəağa Bağırovun anadan olmasının 75 illiyinə həsr olunmuş tədbir elmi konfrans səviyyəsində həyata keçirildi. Həmin tədbirdə LDU-nun qonaqları sırasında AAK-nın o zamanki sədri, akademiklər Azad Mirzəcanzadənin, Budaq Budaqovun, Orxan Məmmədyarovun professorlardan Sudef İmamverdiyevin, Adil Qəribovun, Əjdər Ağayevin, Rəhim Şükürovun, Orxan Əfəndiyevin, Mahir Babayevin maraqlı elmi çıxışları, LDU-nun elmi əlaqələrinin, elmi-tədqiqatların səviyyəsinin daha da yaxşılaşdırılmasına imkanlar yaratdı.

1999-cu ildə Lənkəran Dövlət Universitetinin nəzdində Dövlət Elm və Texnika Komitəsinin filialı yaradıldı.

Bu illər ərzində fəaliyyəti dayandırılmış Lənkəran Subtropik texnikumunun tədris binasının Lənkəran Dövlət Universitetinə verilməsi, tələbələrin məişət şəraitinin yaxşılaşdırılması məqsədilə 50 yerlik yataqxananın, 100 yerlik yeməkxana binalarının istifadəyə verilməsi və LDU-da idman tədbirlərinə xüsusi diqqət ayrılması mühüm tədbirlər sırasında idi.

Həmin illərdə LDU-da Tələbə Elmi Cəmiyyəti, Tələbə Gənclər, Tələbə Həmkarlar Təşkilatları, İdman klubu fəaliyyətlərini təsdiq olunmuş Əsasnamələr üzrə həyata keçirməyə başladı.

Bu illərdə LDU bir neçə beynəlxalq təşkilata – Xəzəryanı Ölkələrin Universitetləri Assosiasiyasının, Avrasiya Universitetləri Assosiasiyasının üzv qəbul olundu, İNTAS, TEMPUS (Avropa İttifaqı) kimi mötəbər proqramlara qoşuldu.

2003-cü ilin noyabr ayında "Xəzər sahili subtropik bölgələrdə çayçılıq və onun inkişaf problemləri" mövzusunda beynəlxalq elmi konfrans keçirildi. Konfransda Azərbaycan çay Assosiasiyası, İran İslam Respublikasının Gilan Universiteti və Gilan Elmi-Tədqiqat Kənd Təsərüfatı və Təbii Mənbələr Mərkəzi ilə birgə təşkil edilən elmi konfransda Xəzərsahili subtropik bölgələrdə çayçılığın vəziyyəti və inkişaf problemləri, bu sahədə elmi-tədqiqat işlərinin əhəmiyyəti geniş müzakirə edildi.

2004-cü ilin aprel ayında YUNESKO-nun "İnsan və biosfer" (MAB) proqramı çərçivəsində LDU-da keçirilən seminarda AMEA Coğrafiya İnstitutunun direktoru akademik Budaq Budaqov, akademik Urxan Ələkbərov da iştirak etdi. Seminarda maraqlı təkliflər irəli sürüldü, respublikada biosfer rezervatın yaradılmasına münasibət bildirildi. Seminarda xüsusi olaraq qeyd olundu ki, bütün dünya çapında tanınan Hirkan relikt meşələrini qorumaq, ondan səmərəli istifadə etmək məqsədilə Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Hirkan Milli Parkı"nın yaradılması elmi, əməli əhəmiyyət daşıyır.

LDU-da aparılan islahatlar, yeni ixtisas qruplarının açılması, yerli elmi dərəcəli kadrların kəmiyyət və keyfiyyətcə artması Universitetin böyük yeniliklərə imza atacağından, kadr potensialının bundan sonra daha da möhkəmlənəcəyindən xəbər verirdi.



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 7 aprel 2005-ci il tarixli fərmanı ilə tanınmış alim, fizika-riyaziyyat elmləri doktoru, Əməkdar elm xadimi, professor Asəf Daşdəmir oğlu İsgəndərov Lənkəran Dövlət Universitetinə yeni rektor təyin olundu. Rektor professor Asəf İsgəndərovun ilk addımları Universitetdə fakültələrin, kafedraların işinin düzgün təşkili, problemlərin həlli yolları əsas məqsəd olaraq qarşıya qoyuldu. Qarşıya qoyulan məqsədləri həyata keçirməkdən ötrü ilk olaraq LDU-da "Fakültə günləri" keçirilməyə başladı. Bu tədbir çərçivəsində keçirilən görüşlərdə aydın oldu ki, uğurlarla yanaşı, mövcud problemlər də var. Həmin problemlərin öyrənilməsi, onların həlli yollarının tapılması hər fakültədə professor-müəllim heyətinin fəallığı şəraitində müzakirə edilərək aradan qaldırılması qərara alındı. Rektorun əmri ilə LDU-da daxili attestasiya keçirilməsi barədə komissiya yaradıldı. Komissiyanın gəldiyi qənaətlər, nəticələr yeni vəzifələri və hədəfləri müəyyənləşdirdi. LDU Attestasiya komissiyasının qərarı ilə Humanitar elmlər və Pedaqoji fakültələr birləşdirilərək Humanitar və pedaqoji elmlər fakültəsi adı altında fəaliyyət göstərməyə başladı. Pedaqoji fakültənin fəaliyyət göstərdiyi tədris korpusu təmir olunaraq tələbə yataqxanası kimi istifadə olunmağa başladı.

Beləliklə, 2005/2016-cı illərdə LDU-da əsasən Təbiyyat, Humanitar və pedaqoji elmlər, İqtisadiyyat və idarəetmə fakültələri, Magistratura və doktorantura şöbəsi, 11 kafedra, 1 elmi-tədqiqat laboratoriyası və müxtəlif mərkəzlər, NATO-nun "Elm və əməkdaşlıq naminə sülh" proqramı çərçivəsində qrant layihəsi əsasında müasir avadanlıqla təchiz edilmiş Elektron Təhsil Şəbəkəsi yaradıldı.

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 23 noyabr 2007-ci il tarixli, 46-11-7048/7 saylı qərarı ilə Lənkəran Dövlət Universitetində İxtisasartırma və yenidənhazırlanma fakültəsi yaradıldı. Müstəqil Nizamnaməyə uyğun olaraq fəaliyyət

göstərən fakültənin əsas məqsədi təhsil sistemində çalışanların və digər mütəxəssislərin ixtisasartırmasını və yenidənhazırlanmasını həyata keçirmək idi. Fakültə əsas diqqətini bölgənin ümumtəhsil məktəblərində çalışanların ixtisasartırma və yenidənhazırlanmasına yönəltdi. 2010-cu ildən fakültə Əlavə təhsil adı ilə fəaliyyətini davam etdirdi.

2005/2016-illərdə LDU-da Riyaziyyat və informatika, Kimya və biologiya, Tarix və coğrafiya, Azərbaycan dili və ədəbiyyatı, İngilis dili və ədəbiyyatı ixtisası üzrə pedaqoji kadrlar, Kompüter elmləri, Tərcümə, Mühasibat uçotu və audit, Biznesin idarə olunması, İqtisadiyyat, İstehsal və xidmət sahələrinin iqtisadiyyatı və idarə olunması, Ekologiya və s. ixtisaslar üzrə mütəxəssislər hazırlamağa diqqət daha da artırıldı, elmin müxtəlif istiqamətləri üzrə elmi-tədqiqat işlərinə start verildi.

2006/2016-cı illərdə Lənkəran Dövlət Universitetində tələbə qəbulunun dinamikası daha da sürətləndi, respublikanın müxtəlif bölgələrindən olan tələbələrin LDU-da təmsil olunma faizi xeyli artdı. Bu dövrdə Universitetdə Ekologiya və turizm işinin təşkili kafedrası, Çayçılıq və subtropik bitkilər üzrə ixtisaslaşma və yaradıcılıq mərkəzi fəaliyyətə başladı. Mərkəz çayçılıq, tərəvəzçilik, subtropik və dekorativ bitkilər ixtisası qruplarında təhsil alan tələbələrə nəzəri cəhətdən öyrəndiklərini istehsalatda sınaqdan keçirməyə imkan verdi. Tələbələrin istehsalat təcrübələrini tədris-təcrübə sahəsində keçirməsi uğurlu nəticələr əldə etməyə imkan verirdi.

2009/2010-cu tədris ilindən Universitetin bütün ixtisaslarında tədris kredit sisteminə keçdi.

2007-ci ildə Fəal təlim üsulları kabineti təşkil edildi. 2008-ci ildən başlayaraq LDU-da tədrisin daha keyfiyyətli aparılması üçün yeni lahiyələr həyata kecirilməyə başladı. 2015-ci ildə Universitetdə təhsilin keyfiyyətini yüksəltmək üçün daha bir ilkə imza atıldı. Bunun üçün korporativ təhsil sisteminin konsepsiyası işləndi və tətbiqinə başlandı. Təhsil sisteminin standartlarına cavab verən beş yeni informatika laboratoriyası yeni avadanlıqlarla təmin edilərək, müasir tələblərə uyğun quruldu. Universitetdə fəaliyyət göstərən tədris kabinetləri, o cümlədən Təhsil Məlumat Mərkəzi, İnformasiya texnologiyalarına nəzarət və innovativ təhsil texnologiyaları kabinetləri ən yeni müasir texniki avadanlıqlarla təmin edildi, "Ən yaxşı müəllim" layihəsi istiqamətində ardıcıl işlər aparıldı, 2015-ci ildə LDU üzrə "Ən yaxşı müəllim" layihəsinin qalibi elan edildi.

AMEA Rəyasət heyətinin 21 sentyabr 2005-ci il tarixli qərarı ilə LDU-nun nəzdində AMEA Lənkəran Regional Elm Mərkəzinin filialı yaradıldı. LDU-nun rektoru, prof. Asəf İskəndərov həmin elm mərkəzinin ilk direktoru təyin olundu. Ölkəmizdə fəaliyyət göstərən dörd elmi mərkəzdən biri olaraq AMEA Lənkəran REM-i fəaliyyətini Lənkəran Dövlət Universiteti ilə sıx əməkdaşlıq şəraitində qurur, birgə elmi-praktik konfranslar təşkil edilirdi.

AMEA-nın 60 illik yubileyi ərəfəsində Akademiyanın Rəyasət Heyətinin Lənkəran REM-nin yaradılması haqqında məlum qərarı qəbul etdikdən az sonra, 2005-ci ilin oktyabr ayının 4-də Lənkəran Dövlət Universitetində "Regionların sosial-iqtisadi inkişafında elm və təhsilin vəzifələri" mövzusunda elmi-praktik konfrans keçirilməsi bu sahədə əməkdaşlığa stimul verən ən mühüm tədbirlərdən biri kimi qeyd olunmalıdır.

2006-cı ilin 23-24 dekabrında Lənkəran Dövlət Universitetində "Heydər Əliyev irsi və Azərbaycanın müasir inkişafında İlham Əliyev mərhələsi" mövzusunda keçirilən beynəlxalq elmi-praktik konfrans Ümummilli lider Heydər Əliyev irsinin öyrənilməsi qorunması, təbliği və tətbiqi ilə yanaşı, Azərbaycan Respublikasının XXI əsrdə müasir

dirçəlişinin müəllifi olan möhtərəm Prezident, cənab İlham Əliyevin bu irsi bacarıqla, inamla və qətiyyətlə inkişaf etdirməsi nəticəsində əldə olunan uğurlarla yanaşı qarşıda duran vəzifələrin təhlilinə də həsr olundu.

LDU 1996-cı ildən qoşulduğu TEMPUS (Avropa İttifaqı) proqramı çərçivəsində işini 2005/2015-ci illərdə də davamlı şəkildə inkişaf etdirir, xarici ölkələrin təhsil ocaqları ilə əməkdaşlığını daha da genişləndirirdi. Belə ki, Lənkəran Dövlət Universitetində TEMPUS proqramı çərçivəsində 2011-ci il iyul ayının 18-dən 30-dək “Azərbaycanda Yazılı və Şifahi Tərcümənin Tədrisində islahatlar” adlı respubikanın aparıcı ali məktəblərinin ingilis dili müəllimlərinin simpoziumu keçirildi. Simpoziumda İngiltərə Esseks Universiteti, Bakı Dövlət Universiteti, Naxçıvan Dövlət Universiteti, Gəncə Dövlət Universiteti və Bakı Müəllimləri Təkmilləşdirmə İnstitutunun 30-dan çox xarici dil müəllimi iştirak etdi. Simpoziumda Azərbaycanda yazılı və şifahi tərcümənin tədrisində islahatlar nitq və tələffüz vərdişləri, ingilis dilinin tədrisi müasir dil siniflərində müəllimin rolu, dillərarası rabitədə lüğətdən istifadə və tədrisi, müəllimlər üçün kommunikasiya vərdişlərinin aşılanması və digər məsələlər ətrafında müzakirələr keçildi, təcrübə mübadiləsi, təhlillər aparıldı.

İkitərəfli müqaviləyə əsasən Fransanın Mark Blok adına Strasburq Universitetinin müəllimləri Lənkəran Dövlət Universitetində I-IV kursların imtahanlarında və diplom işlərinin müdafiəsində iştirakı təmin edildi. 2005/2015-ci illərdə LDU əməkdaşları müxtəlif xarici ölkə Universitetlərində mütəmadi olaraq təcrübə mübadiləsində, treninqlərdə iştirak edirdilər. Bu dövrdə LDU-nun bakalavr səviyyəsində oxuyan tələbələrin bir çoxu Fransanın Strasburq Universitetində, ABŞ və Çin Xalq Respublikasının ali təhsil müəssisələrində təhsillərini davam etdirmiş, bir qismi həmin elmi-pedaqoji müəssisələrdə magistr dərəcəsinə yiyələnmişdilər.

2012-ci ildə LDU-nun “TEMPUS” beynəlxalq təşkilatı ilə birgə işlədiyi “Ali təhsil müəssisələrində informasiya və kommunikasiya texnologiyalarından səmərəli istifadə edilməsi üçün şəraitin yaradılması” layihəsi çərçivəsinə Polşa və Latviya Universitetləri ilə birbaşa əlaqələr yaradıldı. LDU-nun bir qrup müəllimi həmin Universitetlərdə keçirilən treninqlərdə iştirak etdilər. Bu treninglərin nəticəsi olaraq, LDU-da qrant layihəsi əsasında müasir kompüterlər, çap avadanlığı, proyektor, noutbook və digər elektron avadanlıqla təchiz edilmiş informatika laboratoriyasının yaradılmasına nail olundu.

Bu illərdə LDU “Əlilliyi olan insanların Azərbaycan ali təhsil müəssisələrinə inteqrasiyasının təməlinin qoyulması” layihəsi çərçivəsində Polşanın, Makedoniyanın, Avstriyanın Universitetləri, eləcə də respublikamızın bir neçə ali məktəbi ilə əməkdaşlıq edir, xarici ölkə Universitetlərində treninqlər keçən LDU əməkdaşlarının hesabatları dinlənilir, qabaqcıl iş təcrübəsinin yayılmasına imkan yaradılırdı.

2012-ci ildə Erasmus Mundus layihəsi çərçivəsində Rumıniya, Ukrayna, Gürcüstan və İtaliyanın ali məktəbləri ilə qarşılıqlı əlaqələr yaradıldı. Bütün bunlar isə LDU-də beynəlxalq təcrübənin əldə edilməsinə, təhsildə yeni baxışların sürətlənməsinə və bütövlükdə LDU-nun dünya təhsil sisteminə inteqrasiya olunmasına səbəb oldu. Universitetdə 2005/2015-ci tədris illərində də xarici dillərin, informasiya texnologiyalarının, iqtisadi-hüquqi və ictimai-siyasi biliklərin əsaslarının öyrədilməsinə xüsusi diqqət yetirilirdi. Bu məqsədlə Universitetdə Fransız dili və ədəbiyyatı, Alman dili və ədəbiyyatı” mərkəzləri açıldı.

2013-cü ildə Lənkəran Dövlət Universiteti Türkiyə dövlətinin elan etdiyi Mövlanə Mübadilə Proqramına qoşulan ilk Azərbaycan Universiteti oldu.

2005/2016-cı illər ərzində Lənkəran Dövlət Universitetində 7 Beynəlxalq, 6 Respublika elmi-praktik konfransları, çoxsaylı seminar və simpoziumlar keçirildi.



2016-cı il may ayının 27-də Azərbaycan Respublikası Təhsil Nazirliyinin Ali və orta ixtisas təhsili şöbəsinin müdir müavini, tanınmış riyaziyyatçı alim, riyaziyyat elmləri doktoru, professor Natiq Səhrab oğlu İbrahimov Təhsil Naziri Mikayıl Cabbarovun əmri ilə Lənkəran Dövlət Universitetinin rektoru vəzifəsini icra edən, 2021-ci ilin aprel ayında isə Respublka Prezidenti İlham Əliyevin Sərəncamı ilə Lənkəran Dövlət Universitetinin rektoru vəzifəsinə təyin olundu.

LDU-da bu günə qədər qazanılmış uğurların qorunub saxlanılması, inkişaf etdirilməsi, sağlam, şəffaf, obyektiv təhsil mühitinin yaradılması, neqativ halların qətiyyətlə aradan qaldırılması, mütəxəssis hazırlığının ölkə və dünya standartlarına uyğun aparılması, əmək intizamına riayət edilməsi halları ilə yanaşı, hər bir fərdə fəaliyyətinə, işinə görə qiymət verilməsi, elmi-pedaqoji kadr potensialının möhkəmləndirilməsi, regionun xüsusiyyətləri nəzərə alınaraq yeni ixtisasların açılması, tələbə və magistrantların, doktorantların elmi layihələrə daha fəal cəlb olunması, Lənkəranda ən müasir ali məktəb modelinin yaradılması və digər məsələlər yeni rəhbərliyin fəaliyyətinin əsas hədəfləri oldu. Prof. Natiq İbrahimov daha çox problemli sahələrə diqqət yetirməklə, kadr potensialında, eləcə də təhsil prosesinə nəzarət və keyfiyyətin artırılması istiqamətində əsaslı dəyişikliklər yaratmaqla yanaşı, ilk növbədə infrastrukturu, maddi-texniki bazanı, normal vəziyyətə gətirməkdən başlamaq qərarına gəldi.

2016/2017-ci tədris ilini Lənkəran Dövlət Universiteti tamamilə yeni keyfiyyətdə qarşıladı. LDU-nun 2 saylı tədris korpusu əsaslı şəkildə təmir olunaraq, əvvəlki görünüşdən tamamilə fərqli tərzdə tələbə və müəllimlərin istifadəsinə verildi. 2016-cı il sentyabrın 15-də Universitetin əsaslı təmir edilmiş 2 saylı tədris korpusunun açılış mərasimində Azərbaycan Respublikası Təhsil Nazirinin müavini Ceyhun Bayramov iştirak etdi və o, ölkəmizdə milli təhsil quruculuğu strategiyasının uğurla həyata keçirildiyini, Prezident İlham Əliyevin rəhbərliyi ilə elmə, təhsilə diqqətin artırıldığını vurğulayaraq, bilik günü münasibətilə professor-müəllim heyətini və tələbələri təbrik etdi, LDU qarşısında duran daha mühüm vəzifələrdən danışdı və 25 illik şərəfli həyat yolu keçən Universitet kollektivinə yeni uğurlar arzuladı.

Prof. Natiq İbrahimovun ilk qərarlarından biri Universitetin struktur quruluşunda dəyişikliklərin edilməsi, yeni bölmə, şöbə və mərkəzlərin yaradılması, fakültə və kafedraların daha optimal şəkildə yenidən formalaşdırılması, hər bir struktur bölmə üçün fəaliyyət proqramının hazırlanması oldu.

Bundan sonra tyutor xidmətinin işi tamamilə yenidən quruldu. Bu məqsədlə paytaxtdan mütəxəssis dəvət olundu, ona lazımi iş şəraiti yaradıldı, əsasən Universitetin öz yetirmələrindən 30-a yaxın məzun tyutor kurslarına cəlb olundu.

Regionda, ixtisaslı mütəxəssislərin azlığı şəraitində qarşıya qoyulan qlobal vəzifələrin icrası ilk baxışda mümkünsüz görünürdü. Vəziyyətdən çıxmaq üçün ən optimal həllərdən biri də Universitetin elektronlaşdırılması hesab olundu. Beləliklə, "Elektron

Universitet" layihəsinə start verildi. Layihə çərçivəsində Universitetdə İKT sahəsinin modernləşdirilməsi həyata keçirildi. İlk növbədə İnformasiya-Kommunikasiya və Kitabxana mərkəzi tərəfindən tələbələrin, professor-müəllim heyətinin, tədris olunan fənnlərin elektron bazası yaradıldı. Bu bazalar əsasında elektron jurnal və elektron dərs cədvəli hazırlandı. Hər tələbənin tədris fəaliyyəti və akademik göstəriciləri onların şəxsi kabinetlərində öz əksini tapdı. Nəticədə tədris prosesinin demək olar ki, avtomatlaşdırılmçasına nail olundu. Hazırda LDU-nun tələbəsi respublikada ilk dəfə olaraq, imtahan və kollokvium gününü və vaxtını özü müəyyənləşdirir. İmtahanda tələbəyə imtahan biletini kompüter, əvvəlcədən bazaya yüklənmiş imtahan suallarından təsadüfi seçmə yolu ilə formalaşdırıb verir. İnformasiya-kommunikasiya və kitabxana mərkəzi təkcə tədris prosesinin deyil, maliyyə-mühasibat sahəsində, elmi hissədə, təsərrüfat fəaliyyətində müəyyən vacib və mürəkkəb proseslərin elektronlaşdırılmasını da müvəffəqiyyətlə həyata keçirir. Bu gün Universitet Elmi Kitabxanasının elektronmlaşdırılması istiqamətində də ciddi addımlar atılmışdır.

Bütün bunlar Universitetdə tədrisin keyfiyyətinin artırılmasına, təcrübələrin müasir tələblərə uyğun təşkilinə, məzunlarla daha sıx əlaqələrin yaradılmasına, onların gələcək karyeralarının təşkilinə və idarəetmə strukturunda operativliyin təmin edilməsinə səbəb oldu.

Hazırda LDU-da kadr hazırlığının keyfiyyətini yüksəltmək məqsədilə müasir tələblərə cavab verən yeni fənn kabinetləri (İnformatika fənn kabinetləri, Coğrafiya və Tarix kabinetləri, Linqafon kabineti), müasir laboratoriyalar (Kimya və Biologiya tədris laboratoriyaları, Fizika tədris laboratoriyası, Baytarlıq laboratoriyası, Baytarlıq cərrahiyəsi laboratoriyası, Qida məhsulları texnologiyası laboratoriyası, Qida təhlükəsizliyi və ekologiyası laboratoriyası) və ən müasir avadanlıqla təchiz edilmiş Baytarlıq klinikası fəaliyyət göstərir.

Universitetdə aqrar ixtisaslar üçün 2,5 hektarlıq Tədris-təcrübə sahəsində çoxlu sayda sitrus bitkiləri (çay, müxtəlif tərəvəz və bostan bitkiləri) əkilmiş, bitki mühafizəsi, aqronomluq ixtisasları üçün 2 yeni istixana tikilərək təcrübə üçün tələbələrin istifadəsinə verilmişdir.

Turizm və otelçilik və Qida mühəndisliyi ixtisaslarının tələbələrinin təcrübə keçmələri üçün Universitetin balansında olan Qonaq evinin binası əsaslı təmir olunmuş və yenidən qurularaq 35 yerlik otelə çevrilmişdir.

LDU-da professor-müəllim heyətinin mobilliyini təmin etmək məqsədilə Respublikada ilk dəfə olaraq 18 ədəd xidməti mənzil (7 mənzil - 1 otaqlı, 8 mənzil - 2 otaqlı, 3 mənzil - 3 otaqlı) zəruri avadanlıqlarla birlikdə digər yerlərdən dəvət olunan alim və pedaqoqların istifadəsinə verilmişdir.

Universitetdə 2016-ci ildən başlayaraq tələbə kantingenti və Universitetə qəbul olunan tələbələrin sayı da artmaqdadır. Belə ki, 2016/2017-ci tədris ilində tələbə kontingenti 2588 nəfər, qəbul olunanların sayı 745 nəfər idisə, 2025/2026-cı tədris ilində artıq 6700 nəfər, qəbul olunanların sayı isə 2323 nəfər olmuşdur.

Universitet Respublikada ilk ali təhsil müəssisəsi olaraq "Ümumi və ali təhsil müəssisəsi əməkdaşlığı üzrə pilot lahiyənin" iştirakçısı olmuşdur. Layihə çərçivəsində Universitetin professor-müəllim heyəti tərəfindən Lənkəran, Astara və Yardımlı rayonlarının ümumtəhsil məktəblərinin müəllimlərinin peşə biliklərini təkmilləşdirmək məqsədilə "ustad dərslər" keçirilmişdir.

Universitetdə hər il Fizika, Riyaziyyat, Kimya, Biologiya və İnformatika fənləri üzrə regionun orta məktəblərinin şagirdləri üçün olimpiadalar keçirilir.

2017-ci ildən başlatyaraq, LDU-da ənənvi olaraq, Açıq qapı günü və Məzun yarmarkası keçirilir. Açıq qapı günlərində rayon ictimaiyyətinin nümayəndələri, orta məktəb şagirdləri və onların valideynləri Universitetlə yaxından tanış edilir. Məzun yarmarkası tədbirlərinə regionda yerləşən özəl və dövlət müəssisələri dəvət olunur. İndiyə qədər keçirilmiş məzun yarmarkalarında 1000-dən çox məzun iş yerləri ilə təmin olunmuşdur.

Son illərdə Universitetin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində xeyli işlər görülmüşdür. Belə ki, 2016-cı ildə 5 mərtəbəli bina əsaslı təmir olunaraq tədrisə yararlı vəziyyətə gətirilmişdir. 2018-ci ildə Universitetin 2 saylı tədris binasının ərazisində 100 nəfərlik tələbə yeməkxanası tikilib istifadəyə verilmişdir. 2019-cu ildə Universitetin 1 saylı tədris binasına bitişik 4 mərtəbəli yeni tədris binası tikilmiş, eyni zamanda yeni 3 saylı tədris binası və müasir tipli 160 nəfərlik yataqxana binası tikilərək istifadəyə verilmişdir. Binanın həyətyanı sahəsində suni ot örtüklü idman meydançası yaradılmışdır. 2021-ci ildə Universitetin Elmi kitabxana kompleksi əsaslı təmir olunmuşdur. Burada müasir tələblərə cavab verən 100 nəfərlik oxu zalı, 300 nəfərlik konfrans zalı, Elektron kitabxanaya giriş kompüter zalı yaradılmışdır. Son zamanlarda kitabxana fondunun zənginləşdirilməsi istiqamətində xeyli işlər görülmüş, Elektron Kitabxana sistemi istifadəyə verilmişdir. Hazırda kitabxana fondunun sistemin bazasına yığılması istiqamətində işlər davam etdirilir. 2022-ci ildə Universitetin 2 saylı tədris binasının həyətində 5 mərtəbəli yeni tədris binası tikilmiş, daha bir 5 mərtəbəli bina əsaslı təmir edilərək tələbələr üçün 260 yerlik yeni yataqxana istifadəyə verilmişdir. Yeni tikilən və əsaslı təmir olunan bütün binalar yeni zərüri avadanlıq və mebellə təchiz edilmişdir.

Universitet eləcə də elmi-tədqiqat fəaliyyəti istiqamətində Respublika və Beynəlxalq miqyaslı ciddi nailiyyətlər əldə etmişdir. İlk dəfə olaraq dünyanın reytinqli yüksək impakt faktorlu elmi jurnallarına çıxış imkanı yaradılmış, Scopus - Web of Science və digər indeksli beynəlxalq bazalarda yüzlərcə elmi işlər nəşr olunmuş, Universitetin tətqiqatçı alimləri beynəlxaq arenada daha da çox tanınmışdır. Respublika və Beynəlxalq statuslu 50-dən çox Elmi konfrans keçirilmiş, minlərlə tezis materialı dərc olunmuş və konfransların işində Amerikanın, Böyük Britaniyanın, Avropanın, Çinin, Türkiyənin, MDB və digər ölkələrin Elm adamları iştirak etmişdir.

Prioritet istiqamətlər üzrə yeni bir elmi jurnal təhsis edilmiş ("Texnika və Aqrar elmləri" Beynəlxalq Elmi-Praktik Jurnalı), bütün Elmi jurnallar (Elmi Xəbərlər – "Riyaziyyat və Təbiət elmləri seriyası" , Elmi Xəbərlər – "Humanitar elmlər seriyası") yenidən tərtib edilərək onlar üçün ilk dəfə olaraq elektron sayt baza sistemi yaradılmış, DOİ/ISSN identifikasiya nömrələri alınmış o cümlədən jurnallar Ali Attestasiya Komissiyası tərəfindən tanınan dövri elmi nəşrlər siyahısına, AGRİS, İndex Copernicus, ERIH PLUS, E-Library (РИНЦ), Scientific İndexing Services (SİS), CROSSREF, OPENALEX, ROAD, SUDOC, COSMOS və s. beynəlxalq indeks bazalarına daxil edilmişdir.

Universitetdə Elmi kadr inkişafı istiqamətində Fəlsəfə doktoru proqramı üzrə 70-ə yaxın qəbul plan yeri alınmış, Elmlər doktoru proqramı üzrə Respublikanın digər nüfuzlu Ali təhsil müəssisələrində (BDU, UNEC, ADPU və s.) LDU üçün 20-ə yaxın məqsədli yerlər ayrılmış, həmçinin təhsil alan doktorantlar elmi-tətqiqat işlərini yerinə yetirmək məqsədilə respublikanın və xarici ölkələrin Elmi təşkilatlarına göndərilmişdir. Azərbaycan

Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən Universitetin 30-a yaxın əməkdaşına fəlsəfə doktoru elmi dərəcəsi, 20-ə yaxın əməkdaşa dosent və 5-dən çox əməkdaşa isə professor elmi adı verilmişdir.

Universitetin professor-müəllim heyəti tərəfindən müxtəlif elmi istiqamətdə 1000-ə yaxın elmi-tətqiqat işləri aparılmış, 500-ə yaxın elmi-metodiki işlərə isə nəşr hüququ (qrif) verilmişdir. 1000-ə yaxın magistr ayrı-ayrı ixtisaslaşmalar üzrə dissertasiya işlərini uğurla müdafiə etmiş eləcə də Universitetdə təhsil alan bakalavr tələbələri üçün Tələbə Elmi Cəmiyyətinin (TEC) strukturu yenidən qurulmuş, TEC-ə üzv olan tələbələr elmi seminar, konfrans və tədqiqat işlərinə cəlb edilmişdir.

Son illərdə LDU Türkiyə Respublikasının nüfuzlu Universitetləri (Marmara Universiteti, İstanbul Universiteti, Ankara Universiteti, Ege Universiteti, Qazi Universiteti, Afyon Kocatepe Universiteti, Kastamonu Universiteti, Zonguldak Bülent Ecevit Universiteti, Ondokuz Mayıs Universiteti, Adıyaman Universiteti, Kapadokya Universiteti, Sinop Universiteti, Qafqaz Universiteti (Türkiyə), həmçinin Avropa ölkələrinin, o cümlədən Ukrayna (Xarkov Milli Radioelektronika Universiteti) Çexiya Respublikası (Mendel Universiteti) İspaniya (Leon Universiteti) Polşa (Warmiya və Mazuriya Universiteti, Rzesow Universiteti) Macarıstan (Kapoşvar Universiteti, Debretsen Universiteti) Rumıniya (Qalați Universiteti) Moldova (Moldova Dövlət Universiteti), Mərkəzi Asiya ölkələrinin bir sıra nüfuzlu ali təhsil müəssisələri ilə Qazaxıstan (Korkıt Ata Qızılorda Universiteti, Turan Universiteti, X. Dosmuxamedov adına Atırau Dövlət Universiteti, D. Serikbayev adına Şərqi Qazaxıstan Texniki Universiteti), Özbəkistan (Daşkənd Maliyyə və Texnologiya İnstitutu (TIFT), Səmərqənd Dövlət Universiteti, Nəvai Dövlət Universiteti, Andican Xarici Dillər Dövlət İnstitutu, Buxara Dövlət Universiteti) Qırğızıstan (Qırğızıstan İqtisad Universiteti, Qırğızıstan Milli Aqrar Universiteti) qarşılıqlı, İkili diplom, mübadilə və iki tərəfli əməkdaşlıq müqavilələri imzalamışdır. Universitet ölkə daxilində fəaliyyət göstərən elm və ali təhsil müəssisələri ilə də sıx əməkdaşlıq edir. Bu əməkdaşlıqlar akademik mobilliyin təşviqinə, birgə elmi tədqiqatların aparılmasına və ixtisaslaşmış təlim proqramlarında iştirakın genişlənməsinə şərait yaratmış, LDU-nun tələbə və əməkdaşlarının həm akademik, həm də peşəkar təcrübəsini əhəmiyyətli dərəcədə zənginləşdirmişdir. Professor-müəllim heyəti və tələbələr tərəfdaş ali təhsil müəssisələri tərəfindən təşkil olunan müxtəlif təlim sessiyalarında, seminar və mübadilə proqramlarında fəal iştirak etmişlər. Beynəlxalq əlaqələrin möhkəmləndirilməsi vasitəsilə LSU qlobal miqyasda inteqrasiya olunmuş, dinamik akademik mühitin formalaşdırılmasına yönəlmiş missiyasını ardıcıl şəkildə dəstəkləməkdədir.

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) ilə birlikdə kadr hazırlanması və İkili Diplom Proqramı üzrə, Bakı Dövlət Universiteti, Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Azərbaycan Dövlət Mədəniyyət və incəsənət Universiteti, Azərbaycan Texnologiya Universiteti, Sumqayıt Dövlət Universiteti, Mingəçevir Dövlət Universiteti ilə birlikdə kadr hazırlığı üzrə əməkdaşlıq aparılır.

Universitet Elmi tədqiqatların düzgün qurulması, elmi kadrların hazırlanması məqsədilə Elm və Təhsil Nazirliyinin və AMEA-nın İnstitutları ilə əməkdaşlıq edir və müxtəlif elmi tədbirlərin birgə təşkilində və həyata keçirilməsində aktiv iştirak edir.

Son illər Universitet beynəlxalq, eləcə də yerli Təşkilatlara layihələr təqdim edir və onlarla yaxından əməkdaşlıq edir. LDU-da Taras Şevçenko adına Kiyev Milli Universiteti, Türkiyə Respublikasının İqtisadi inkişaf və Sosial Tədqiqat İnstitutu (İKSAD), Konya

Necmettin Ərbakan Universiteti, ADNSU, ADPU, AMEA Tarix İnstitutunun və s. birgə təşkilatçılığı beynəlxalq konfrans və simpoziumlar keçirilmiş, Universitetin xeyli müəllim və tələbəsi, Türkiyə Universitetlərində mübadilə proqramı çərçivəsində iştirak etmişdir.

2022-ci ildə regionda və Lənkəran rayonunda Lənkəran Dövlət Universitetinin 30 illiyinə həsr olunmuş silsilə yubiley tədbirləri və sonda Lənkəran şəhər Heydər Əliyev mərkəzində yekun tədbiri keçirildi. Tədbirdə Azərbaycan Respublikasının Elm və Təhsil Naziri Emin Əmrullayev, Respublikada fəaliyyət göstərən ali məktəblərin rektorları, Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı və dəvət olunmuş qonaqlar iştirak etdilər. Tədbir zamanı Azərbaycan Respublikası Prezidentinin Lənkəran Dövlət Universitetinin 30 illik yubileyi münasibətilə imzalanmış sərəncamı oxundu və LDU-nun bir sıra əməkdaşları Azərbaycan təhsilinin inkişafında göstərdikləri xidmətlərə görə təltif olundular.

2025-ci ildə Universitet beynəlxalq əməkdaşlıq sahəsində də bir sıra böyük uğurlara imza atdı. Belə ki, Lənkəran Dövlət Universiteti dünyanın ali təhsil müəssisələrinin nüfuzlu reytinq sistemlərindən olan “Times Higher Education” dünya reytinq siyahısında yer alaraq, TOP 1001-1500-də qərarlaşdı. Elə həmin ildə LDU-nun fəaliyyəti dünyanın ən nüfuzlu reytinq agentliklərindən biri olan “QS Quacquarelli Symonds” tərəfindən aparılan “QS Stars” auditində 3 ulduz ilə qiymətləndirildi. Həmçinin, Lənkəran Dövlət Universiteti dünyanın nüfuzlu reytinqlərindən biri olan “GreenMetric Ranking 2025” də ilk dəfə olaraq yer alıb. Lənkəran Dövlət Universiteti ali təhsil müəssisələri arasında qlobal reytinq cədvəlində 1616-cı mövqedə qərarlaşmışdır.

Universitetdə tələbələrin vətənpərvərlik ruhunda tərbiyələndirilməsi daim diqqət mərkəzindədir. Bu məqsədlə LDU-da tələbələrin iştirakı ilə vətənpərvərlik mövzusunda ardıcıl konfranslar, dəyirmi masalar və s. tədbirlər keçirilir.

Universitetdə ənənəvi olaraq Ümummilli lider Heydər Əliyevin dövlətçiliyin möhkəmləndirilməsində, elm və təhsilin inkişafında əvəzsiz xidmətlərinə, gənc nəslə qayğısına, həyat və fəaliyyətinə həsr olunmuş tədbirlər, elmi sessiya, simpozium və konfranslar keçirilir, tələbələrin görkəmli elm, təhsil və ictimai-siyasi xadimlərlə görüşləri təşkil edilir, tarixi yerlərə ekskursiyalar onlarda doğma yurda, torpağa, əməyə məhəbbət hisslərini daha da artırır. Hər il 28 May – Respublika günü münasibətilə "Azərbaycan mənim doğma vətənimdir!" devizi altında keçirilən tədbirlər, Universitet kollektivinin N.B.Vəzirov adına Lənkəran Dövlət Dram Teatrının tamaşalarına baxmaları artıq ənənə halına çevrilmişdir**.**

Heydər Əliyev Fondunun prezidenti, YUNESKO və İSESKO-nun xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın şəxsi təşəbbüsü ilə işlənib hazırlanmış "Hərəmiz bir ağac əkək!" layihəsi Universitet kollektivi tərəfindən razılıqla qarşılanmışdır. Böyük vətənpərvərlik təşəbbüsünə qoşulan Universitetin müəllimləri və tələbələri yaz və payız aylarında həftədə iki dəfə iməciliyə çıxaraq, tədris korpuslarında, inzibati binada yaşıllaşdırma, abadlıq və səliqə-sahman işləri aparırlar. Universitetin 1 saylı tədris korpusunun həyətində "Dəmirağacı parkı" salınmışdır. Yaşıllıqlara qulluq göstərməkdən ötrü tələbələrdən xüsusi briqada təşkil edilmişdir.

Universitetin tələbə həyatı təkcə təhsillə məhdudlaşmır. Gənclər Tələbə Elmi Cəmiyyəti, Tələbə Gənclər Təşkilatı, Tələbə Həmkarlar Təşkilatı, Tələbə Yaradıcılığı Mərkəzi, İdman klubu kimi təşkilatlarda təmsil olunur.

Son illərdə LDU tələbələri respublika üzrə təşkil olunan müxtəlif bilik və idman yarışlarında iştirak edərək layiqli yerlər qazanmış, bir çox kubok və diplomlar əldə etmişlər.

Universitetdə ideya-siyasi işlər Azərbaycan Respublikası Prezidentinin, Təhsil Nazirliyinin müəyyənləşdirdiyi konkret vəzifələrə uyğun aparılır.

Lənkəran Dövlət Universitetində əməkdaşların sosial vəziyyətinin yaxşılaşdırılması daimi diqqət mərkəzindədir. Son illərdə işçilərin əməkhaqları mütəmadi olaraq artırılır, hər bir bayram ərəfəsində onlara maddi yardım göstərilir, pedaqoji sahədə və ictimai fəaliyyətdə fərqlənən əməkdaşlar müxtəlif formada rəğbətləndirilir. Universitetə elmi dərəcəli kadrların cəlb edilməsi işində də mühüm işlər görülüb. Belə ki, respublika ali məktəbləri içərisində ilk dəfə olaraq məhz Lənkəran Dövlət Universitetində kənardan dəvət olunmuş mütəxəssislər Universitetin nəzdində tikilən sosial mənzillərlə təmin olunurlar. Hər cür şəraiti olan bu 1-2-3 otaqlı mənzillərdə dəvət olunan mütəxəssislər ailəsi ilə birgə yaşamaq imkanına malikdirlər. Son illərdə artıq ənənəvi hal almış hər tədris ilinin sonunda bütün Universitet əməkdaşlarının iştirakı ilə rayonun müxtəlif yerlərinə kütləvi gəzintilər təşkil olunur. Azərbaycanın zəfər çaldığı Vətən müharibəsində şəhid olmuş məzun və tələbələrimizin ailələri daim Universitet tərəfindən diqqət mərkəzindədir. Şəhidlərimizin xatirəsi həmişə qürurla yad edilir, ailələrinə maddi və mənəvi dəstək göstərilir.

Bütün bunlarla yanaşı, tələbələrimizin asudə vaxtının səmərəli təşkili də prioritet məsələlərdəndir. Hər tədris ilinin başlanğıcında “Bilik günü” təntənəli şəkildə qeyd olunur, Universitetimizə yüksək balla qəbul olunmuş tələbələrə qiymətli hədiyyələr verilir. LDU-da dövlət tədbirləri və milli bayramlarımız yüksək fəallıqla və təntənəli şəkildə keçirilir, tələbələrdən ibarət komandalar arasında müxtəlif intellektual oyunlar təşkil olunur, bir sıra respublika səviyyəli belə oyunlarda iştirak təmin edilir. İdman sahəsində də tələbələrimiz müxtəlif növlər üzrə uğurla fəaliyyət göstərib və idmanın bir çox növlərində beynəlxalq səviyyəli yarışlarda mükafatlar əldə etmişdir. Ali məktəblərarası yarışlarda keçirilən idman tədbirlərində də tələbələrdən ibarət komandalarımız çıxış edirlər. Bütün bu cür tədbirlərimizdə və ümumən ictimai fəaliyyətdə seçilən tələbələrimiz Universitet rəhbərliyi tərəfindən rəğbətləndirilir.

Universitetin tələbələri, məzunları və əməkdaşları torpaqlarımızın işğaldan azad olunması uğrunda II Qarabağ müharibəsində aktiv iştirak etmiş 11 nəfər şəhid vermişdir. LDU-nun 1 saylı tədris korpusunun həyətində şəhid tələbə və məzunlarımızın xatirəsinə memorial abidə ucaldılmışdır.

2020-ci ildə Lənkəran şəhərində fəaliyyət göstərən Sosial və Aqrar-Texnoloji Kollec Universitetin nəzdinə verilmiş və bunun nəticəsində kollecdə də tədrisin keyfiyyətinin yaxşılaşdırılması, daxili nizam-intizam qaydalarının möhkəmləndirilməsi və yeni idarəetmə strukturunun yaradılmasına nail olunmuşdur.